# Heydər Əliyev-100

## Azərbaycan yeni zirvələr fəth edir

*Yasamal rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində iyunun 8-də YAP Yasamal rayon təşkilatı Akademik Milli Dram Teatrında tədbir keçirib.**

Əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarı ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.









Tədbirin rəsmi hissəsindən öncə Akademik Milli Dram Teatrında "Heydər Əliyev İli" ilə əlaqədar rəsm sərgisinə baxış keçirilib. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət, millət qarşısında tarixi xidmətləri zaman keçdikcə daha aydın görünür. Ulu Öndərin uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqil Azərbaycan beynəlxalq arenada öz layiqli yerini tutmaq, inkişaf etmiş ölkələr sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləmiş, dövlət quruculuğu və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə etmişdir.

Vurğulanıb ki, Ümummilli Liderin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla və inamla davam etdirilir, güclü və nüfuzlu Azərbaycan yeni zirvələr fəth edir. Bu gün müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev ideyaları əsasında uğurla inkişaf edir.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib ki, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ümummilli Liderin parlaq siyasi zəkası, bacarığı, istedadı sayəsində yeni Azərbaycan, onun bugünkü gerçəklikləri yaradıldı və gələcəyə aparan yol müəyyən edildi. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübuta yetirib. Ölkəmiz dünyada layiq olduğu zirvəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib. Azərbaycan Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin əzmkar və yorulmaz fəaliyyəti nəticəsində daha da inkişaf etməkdədir.

Milli Məclisin deputatı Elnur Allahverdiyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə söykənən güclü, möhtəşəm, qüdrətli, müasir dövlətin yaradılması olmuşdur. Ümummilli Lider milli dövlətçilik ideyalarını hər şeydən üstün tutmuşdur. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.

Vətən müharibəsi şəhidi Nurlan Mustafayevin anası, "H.Cavid pr.33a" ("Bakı Metropoliteni" QSC) ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini Rahilə Ramazanova çıxış edərək vurğulayıb ki, xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində ölkəmizin möhtəşəm uğurlara imza atdığını söyləyib.

Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, təşəkkürnamə və hədiyyələr, partiya sıralarına yeni qoşulmuş şəxslərə isə üzvlük vəsiqələri təqdim olunub. Tədbirə bədii hissə ilə yekun vurulub.